Respublika



17 noyabr / 2021

"Mən çox şadam ki, bu gün biz türk dövlətləri arasındakı birlikdən danışarkən gələcəyə baxırıq. Çünki bizim gələcəyimiz, birgə gələcəyimiz üçün çox möhkəm zəmin var, möhkəm təməl var. Bu, bizim ortaq köklərimizdir, dilimizdir, dinimizdir və ortaq maraqlarımızdır".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il noyabrın 12-də İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşündə söylədiyi bu fikirlər qlobal əməkdaşlığa böyük əhəmiyyət verdiyini bir daha təsdiqləyir.



# AZƏRBAYCANIN QLOBAL ƏMƏKDAŞLIQDA MÜSTƏSNA ROLU XÜSUSİ VURĞULANIB

## *Zirvə görüşündə iqtisadi əlaqələrin daha da güclənəcəyinə əminlik ifadə olunmaqla, yeni mərhələnin başlanğıcı qoyuldu*

Qeyd edək ki, Türk Dövlətlərinin Əməkdaşlıq Şurasının qurulması fikri ilk dəfə 2006-cı ildə Qazaxıstan Prezidenti Nursultan Nazarbayev tərəfindən irəli sürülüb. Təşkilat türkdilli ölkələrin dövlət başçılarının 3 oktyabr 2009-cu il tarixində Naxçıvan şəhərində keçirilən Zirvə görüşündə imzalanmış Naxçıvan Sazişi əsasında yaradılıb. 2019-cu il mayın 24-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təklifi və şura üzvlərinin razılığı ilə Nursultan Nazarbayev Türk Şurasının ömürlük fəxri rəhbəri seçilib. 2018-ci ilin sonlarından Macarıstan Türk Şurasında müşahidəçi qismində iştirak edir.

Şura eyni dildə danışan və oxşar mədəni mühitdə yaşayan xalqların birliyinin gücləndirilməsi, siyasi və iqtisadi-ticari əlaqələrin möhkəmləndirilməsi üçün yeni regional ümumtürk birliyinin yaranması məqsədini daşıyır. Beynəlxalq əməkdaşlığa böyük əhəmiyyət verən TDƏŞ həmçinin, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, ATƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi, BMT, Ümumdünya Turizm Təşkilatı ilə əlaqələr qurmuşdur. TDƏŞ təsis edildikdən sonra Almatı, Bişkek, Qəbələ, Bodrum, Nur-Sultan (Astana), Çolpan-Ata və Bakı olmaqla yeddi Zirvə görüşü keçirmişdir. Birinci Zirvə Görüşü "İqtisadi Əməkdaşlıq" mövzusunda 2011-ci il 20-21 oktyabr tarixlərində Almatı şəhərində baş tutmuşdur. Hər il mütəmadi olaraq Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının iqtisadiyyat üzrə işçi Qrupunun iclası və üzv dövlətlərin iqtisadiyyat nazirlərinin görüşü keçirilir. İclasda üzv ölkələr arasında iqtisadi münasibətlərin təkmilləşdirilməsi və inkişafı yolları barədə təkliflər və üzv ölkələrin iqtisadi sahədə üzləşdiyi problemlərin müzakirəsi aparılır. 2012-ci və 2016-cı illərdə iclaslar Azərbaycanda keçirilib.

2019-cu il oktyabrın 15-də Bakı şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü, həmçinin Zirvə görüşü çərçivəsində 2019-cu il oktyabrın 14-də isə Biznes Forum təşkil olunmuş, təşkilata sədrlik Azərbaycana həvalə olunmuşdu.

Azərbaycanın sədrliyi dövründə təşkilat çərçivəsində mövcud əməkdaşlıq istiqamətlərinə əlavə olaraq, səhiyyə, miqrasiya, kənd təsərrüfatı, energetika, media, prokurorluq, ədliyyə və humanitar sahələrdə yeni əməkdaşlıq mexanizmləri qurulub.

**(davamı 5-ci səhifədə)**

# AZƏRBAYCANIN QLOBAL ƏMƏKDAŞLIQDA MÜSTƏSNA ROLU XÜSUSİ VURĞULANIB

## *Zirvə görüşündə iqtisadi əlaqələrin daha da güclənəcəyinə əminlik ifadə olunmaqla, yeni mərhələnin başlanğıcı qoyuldu*

(əvvəli 1-ci səhifədə)

Dünyanı cənginə alan koronavirus pandemiyası ilə əlaqədar olaraq 2020-ci il aprelin 10-da videokonfrans formatında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və sədrliyi ilə COVID-19 pandemiyası ilə mübarizəyə həsr olunmuş TDƏŞ-in fövqəladə Zirvə görüşü keçirilmişdir. Görüşdə dövlət başçıları tərəfindən səsləndirilən məsələlərin icrası ilə əlaqədar 2020-ci il mayın 6-da iqtisadiyyat nazirləri və gömrük orqanları rəhbərlərinin fövqəladə iclası təşkil olunmuşdur.

Azərbaycan iki il ərzində Türk Şurasına uğurla sədrlik etmiş, sədrliyi dövründə təşkilatın fəaliyyətinin gücləndirilməsinə, türkdilli ölkələr və xalqlar arasında dostluğun, qardaşlığın və əməkdaşlığın daha da möhkəmləndirilməsinə səy göstərmişdir. Bundan başqa, təşkilatın gələcək perspektivdə görməli olduğu işləri aktuallaşdırmış, Türk Şurası dövlət başçılarının İstanbul sammitində qəbul edilməsi ehtimal olunan 2 məsələ - təşkilatın adının dəyişdirilməsi və Türkmənistanın qurumun üzvü olması kimi qərarları da təklif etmişdir.

Türkdilli dövlətlərin bəyannaməsi böyük siyasi dövrün yeni başlanğıcıdır. Şuranın təşkilat formasına keçməsi qurumun statusunun yüksəldilməsi və əhatə dairəsinin genişləndirilməsi deməkdir. Onu da qeyd edək ki, təşkilatın bu günə qədər əldə etdiyi uğurlarında, istər pandemiya dövründə vaksinlərin ədalətli paylanmasında, istərsə də türk dövlətləri ilə qarşılıqlı əlaqələrin qurulmasında Azərbaycanın əvəzsiz rolu vardır.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının bundan sonra Türk Dövlətləri Təşkilatı olması təşkilatın statusunun yüksəldilməsinə, əhatə dairəsinin genişləndirilməsinə xidmət edəcək. Əgər Türk Şurası bu günə qədər mədəniyyət, təhsil, kommunikasiya və s. sahələri özündə ehtiva edirdisə, təşkilat Türk Dövlətləri Təşkilatı adı ilə hərbi, iqtisadi, siyasi sahələrə də daha çox önəm verəcəkdir. Üzv dövlətlərin hamısı bərabərdir, biri digərindən üstün deyildir. Belə əməkdaşlıq bütün türk dövlətlərinin inkişafına kömək edəcək, onların birliyini, suverenliyini möhkəmləndirəcək, digər ölkələrin müdaxilələrinin qarşısını alacaqdır.

Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı uğur isə bütün türk dünyasının qələbəsi kimi qiymətləndirilir. Təşkilata üzv dövlətlər Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına tərəfdar olmaqla yanaşı, Azərbaycanın münaqişədən sonrakı bərpa, yenidənqurma və reinteqrasiya səylərinə töhfə verməyə hazır olduqlarını ifadə ediblər.

Böyük fəxrlə qeyd etməliyik ki, Zirvə görüşündə Prezident İlham Əliyevin Türk dünyasının ali mükafatı ilə təltif edilməsi Azərbaycan Prezidentinin türk birliyinin yaradılmasında uzun illərdir göstərdiyi xidmətlərə verilən layiqli qiymətdir. Bu illər ərzində Prezident İlham Əliyevin həyata keçirdiyi strateji, nəqliyyat, enerji layihələri türk dövlətlərinin gələcək əməkdaşlıq platformasını yaratdı. İki illik sədrlik dövründə türk dünyasının daha möhkəm bağlarla birləşməsi üçün mühüm proqramlar həyata keçirdi.

Türk Dünyasının Ali Ordeni ilə təltif edilən Prezident İlham Əliyev bu yüksək mükafata görə təşəkkürünü bildirərək VIII Zirvə görüşündəki çıxışında demişdir: "Bu, mənim üçün böyük şərəfdir, eyni zamanda, böyük məsuliyyətdir. Mənim sevincimi ikiqat edən odur ki, bu Ali Ordeni mənə Türk Şurasına üzv ölkələrin dövlət başçıları təqdim edirlər. Onların imzası ilə və əziz Qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə bu yüksək mükafat mənə verilir. Qeyd edilir ki, bu, Qarabağın azad edilməsi işində göstərdiyim səylərə və türk birliyinin daha da güclənməsi işinə töhfələrimə görə verilir. Bu, türk dövlətləri tərəfindən mənim işimə, mənim fəaliyyətimə verilən çox yüksək mükafatdır, yüksək qiymətdir. Buna görə də mən bütün Azərbaycan xalqı adından çox dərin təşəkkürümü bildirirəm. Çünki mən belə zənn edirəm ki, bu mükafat bütün Azərbaycan xalqına verilmiş mükafatdır".

Türkmənistanın Türk Dövlətləri Təşkilatına müşahidəçi üzv qəbul olunması da türk dövlətləri və xalqları arasında həmrəyliyin və əməkdaşlığın daha da güclənməsinin təzahürüdür.

Azərbaycan COVID-19 pandemiyasının mənfi nəticələrinin aradan qaldırılması üçün qlobal səylərin səfərbər edilməsində əhəmiyyətli rol oynayıb. Bu siyasətə sadiq qalan ölkəmiz bu dəfə Türk Dövlətləri Təşkilatının himayəsi altında Türkiyə, Qazaxıstan və Macarıstanla birgə Afrika ölkələrinə vaksin bağışlamaq barədə qərara "hə" deyib. Həmçinin 2022-ci il 1 sentyabr tarixindən gec olmayaraq Türk İnvestisiya Fondunun yaradılması qərara alınıb. Bu isə iqtisadi əlaqələrin daha da güclənməsinə öz töhfəsini verəcək. Trans-Xəzər beynəlxalq, şərq, qərb, orta dəhlizi çərçivəsində Zəngəzur dəhlizi daha yaxşı əlaqə təmin etmək üçün yeni yaranan fürsətdir. Bundan sonra da Türkiyənin Türk Dövlətləri Təşkilatına rəhbərliyi dövründə türk dövlətləri, xalqlan arasındakı münasibətlər daha da inkişaf edəcək. Xüsusilə Zəngəzur dəhlizinin açılması ilə türk xalqları, dövlətləri arasında bu əlaqələrin qurulması gələcəkdə iqtisadi, siyasi münasibətlərin daha da inkişaf etdirilməsinə və türk dövlətləri birliyinin güclənməsinə öz töhfəsini verəcəkdir.

Nəticə olaraq deyə bilərik ki, Təşkilatın VIII Zirvə görüşündə Azərbaycanın müstəsna fəaliyyəti diqqətə çatdırılıb. Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi yüksək qiymətləndirilib.

Hazırda regionda həyata keçirilən beynəlxalq və regional layihələr türkdilli dövlətlər arasında bağlılığa öz töhfəsini verməkdədir. Zəngəzur dəhlizinin açılması ilə bu bağlılıq daha da artacaq, əməkdaşlığa yeni bir nəfəs qatacaq. Azərbaycan və Azərbaycan Prezidentinin nüfuzunu, lider mövqeyini daha da gücləndirəcək.

**Nurəngiz ADİLQIZI,**
**"Respublika".**